# Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Satınalma komissiyasının bildirişi

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2025-ci il üçün xərclər smetasının 314000 – “Qeyri-maddi aktivlər” köməkçi bölməsi üzrə lisenziyaların satın alınması ilə bağlı 07.07.2025-ci il tarixində elan edilmiş açıq tender proseduruna qatılan Təchizatçılardan birinin uyğunluq sənədlərinin təqdim edilməsi müddətinin artırılması ilə bağlı sorğusuna əsasən “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 27.4-cü madəsinə uyğun olaraq sözügedən açıq tender proseduru üzrə təkliflərin təqdim edilməsi müddəti 5 (beş) iş günü uzadılmışdır. Bununla əlaqədar olaraq şərtlər toplusuna dair izahat üçün son müddət 29.07.2025-ci il saat 10:00-dək, şərtlər toplusuna dəyişiklik üçün son müddət 31.07.2025-ci il saat 10:00-dək, təklifin qüvvədə olma müddəti 07.10.2025-ci il tarixinədək müəyyən edilmişdir. Təkliflərin təqdim edilməsinin son müddəti və təkliflərin açılmasının müddəti 05.08.2025-ci il saat 10:00-dır.

Satınalma komissiyası